## Kimi

**Dədə Şəmşir**

Namərd sənin qulluğunda qul olar,
Öz işi düzəlib-bitənə kimi.
İrişə-irişə üzünə gülər,
Əli bir tərəfə, çatana kimi.

Dostunu tanımaz nadan, sərsəri,
Bu elin sözüdür nə vaxtdan bəri.
Qoy sellər aparsın nanəcibləri,
Bax dalınca, gözdən itənə kimi.

Xoryadın ox sözü qəlbimə dəydi,
Büküb qamətimi, qəddimi əydi.
Bildirçin də bir ay payızda bəydi,
Darı sünbülünə yetənə kimi.

*Şəmşir* gərək mərd ocağın qalasın,
Hər kəs çəkər öz dilinin bəlasın.
Qoy səni şir yesin, şir parçalasın,
Tülkü kölgəsində yatana kimi.

## Kimi

**Cəmil Əkbər**

Könül quşum qoy başına dolansın,
Qayıdıb yanıma gələnə kimi.
Dərman eylə yaralarım sağalsın,
Bağrımın başını dələnə kimi.

İnsafı, vicdanı atandan olma,
Mərdləri namərdə satandan olma,
Yaxşını yamana qatandan olma,
Köç edib dünyadan ölənə kimi.

Əyib vüqarımı bükmək nə lazım?
Könlümün mülkünü sökmək nə lazım?
Gözümün yaşını tökmək nə lazım?
Sonradan vurhavur silənə kimi.

Bağlardan gül-çiçək dərginən mənə,
Dərib dəstə tutub sərginən mənə,
O ilk məhəbbəti verginən mənə,
Onu yüz yerindən bölənə kimi.

Hər yetənə igid demə, nər demə,
Sərraf demə, zərgər demə, zər demə.
Ona-buna böhtan demə, şər demə,
Öyrənib halını bilənə kimi.

Yanımda durmayıb getsən yaxşıdır,
Özgə bir diyarda ötsən yaxşıdır.
*Cəmil*'in gözündən itsən yaxşıdır,
Yalandan üzümə gülənə kimi.